**Avropa və Mərkəzi Asiyada iqtisadi fəaliyyət yaxşılaşır,
lakin artım pandemiyadan əvvəlki səviyyədən geri qalır**

**WASHINGTON, 5 oktyabr 2023-cü il** – Dünya Bankının bu gün yayımlanan region üzrə İqtisadi Məruzəsində qeyd olunur ki, Avropa və Mərkəzi Asiya regionunun inkişaf etməkdə olan bazarları və iqtisadiyyatları (EMDE) üçün iqtisadi artım proqnozuna yenidən baxılaraq, 2023-cü il üçün 2,4%-ə qədər artırılıb.

Artımın sürətlənməsi müharibədən zərər çəkmiş Ukrayna, və Mərkəzi Asiya üzrə yaxşılaşdırılmış proqnozları, eləcə də Türkiyədə istehlakçıların dayanıqlığını və hərbi və sosial transferlərə dövlət xərclərinin artması səbəbindən Rusiyada gözləniləndən daha yaxşı artımı əks etdirir. Rusiya və Ukrayna istisna olunarsa, 2023-cü ildə regional iqtisadiyyatın 3% artacağı gözlənilir. Buna baxmayaraq, artım pandemiyadan əvvəlki uzunmüddətli orta göstəricilərə nisbətən zəif olaraq qalır. Ümumilikdə, Avropa və Mərkəzi Asiya ölkələrinin yarısında artımın 2023-cü ildə 2022-ci illə müqayisədə daha yavaş olacağı və ya az dəyişəcəyi gözlənilir.

2024-25-ci illər ərzində regionun ən böyük ticarət partnyoru olan Avropa İttifaqında (Aİ) zəif genişlənmə, yüksək inflyasiya, daha sərt maliyyə şərtləri və Rusiyanın Ukraynaya təcavüzünün təsirləri fonunda artımın ildə 2,6% olacağı gözlənilir.

“*Rusiyanın Ukraynaya təcavüzündən yaranan çarpaz şoklar, yaşayış xərcləri böhranı və iqlim riskləri Avropa və Mərkəzi Asiyada ciddi problemlər yaradır*”, - **Dünya Bankının Avropa və Mərkəzi Asiya Regionu üzrə vitse-prezidenti Antonella Bassani** deyib. “*Məhsuldarlığın artımını canlandırmaq, daha yaxşı iqtisadi və sosial nəticələr əldə etmək, dayanıqlığı gücləndirmək və iqtisadiyyatın dekarbonizasiyası səylərini sürətləndirmək üçün ölkələrə yeni yanaşma zəruri olacaq*”.

Artımın azalması riskləri Avropa və Mərkəzi Asiyadakı formalaşan iqtisadiyyatların perspektivinə kölgə salır. Qlobal əmtəə bazarlarında artan volatillik və enerji qiymətlərindəki artım fonunda yüksək inflyasiya davam edə bilər. Qlobal maliyyə bazarları maliyyələşdirmə şərtlərinin sərtləşməsi səbəbindən daha dəyişkən və məhdudlaşdırıcı ola bilər. 2020-2024-cü illər üçün qlobal artım 1990-cı ildən bu yana istənilən beş illik dövrlə müqayisədə daha zəifdir və daha da zəifləyə bilər.

“*COVID-19 və yaşayış xərcləri böhranı səbəbindən son bir neçə ildə xərclərin böyük artımından sonra hökumətlərin fiskal konsolidasiya həyata keçirmək planlarına baxmayaraq, bu il maliyyə kəsirləri əsas etibarı ilə dəyişməyib*”, - **Dünya Bankının Avropa və Mərkəzi Asiya regionu üzrə baş iqtisadçısı İvailo İzvorski** deyib. "Əhalinin yaşlanmasının artan xərcləri, daha yüksək faiz dərəcələri, iqlimin dəyişikliyinə uyğunlaşma üçün lazım olan investisiyalar və digər çarpaz böhranların idarə edilməsi dövlət büdcələrinə təzyiqi davam etdirəcək."

Daha stabil elektrik təchizatı, hökumət xərclərinin artması, davamlı donor dəstəyi, daha yaxşı məhsul və ixracatın bir hissəsinin ölkənin qərb sərhədləri vasitəsilə həyata keçirilməsi sayəsində Rusiyanın ölkəni işğal etdiyi 2022-ci ildəki 29,1% daralmadan sonra Ukrayna iqtisadiyyatının bu il 3,5% böyümə ehtimalı var.

Türkiyə iqtisadiyyatının bu il 4,2% böyüməsi gözlənilir ki, bu da siyasət qeyri-müəyyənliyinin azalmasını və istehlakçı tələbatının artmasını əks etdirir. Bununla belə, artan faiz dərəcələri və tədrici fiskal konsolidasiya fonunda daxili tələbatın soyuması səbəbindən 2024 və 2025-ci illərdə artımın orta hesabla 3,5%-ə qədər səngiyəcəyi ehtimal olunur. Rusiyada artan dövlət xərcləri və istehlakın dayanıqlılığı sayəsində 2023-cü ildə artımın 1,6% təşkil edəcəyi gözlənilir. Amma bu göstəricinin potensialda məhdudiyyətlər və istehlakçı tələbatının yavaşıması nəticəsində 2024-cü ildə 1,3%-ə, 2025-ci ildə isə 0,9%-ə qədər zəifləməsi gözlənilir.

Mərkəzi Asiyada bu il artımın 4,8%-ə qədər güclənəcəyi və inflyasiyanın mötədil olacağı halda 2024 və 2025-ci illər üçün orta hesabla 4,7% olacağı gözlənilir.

Əksinə, Qərbi Balkanlarda artımın bu il 2,5%-ə qədər səngiməsi, 2024 və 2025-ci illərdə isə 3,3%-dək artacağı proqnozlaşdırılır ki, bu da inflyasiya təzyiqlərinin mötədilliyini, ixracın tədricən bərpasını və donorların dəstəklədiyi infrastruktur layihələrinə dövlət xərclərinin artmasını əks etdirir. 2023-cü ildə

Albaniya, Kosovo və Monteneqroda turizmin bərpası ilə istehlak canlanmış, lakin Aİ-dən zəif ixrac tələbatı səbəbindən Bosniya və Herseqovina, Şimali Makedoniya və Serbiyada zəifləmişdir.

Daha güclü ticarət, daha çox pul və insan axını bəzi iqtisadiyyatlarda, xüsusən də Mərkəzi Asiya və Cənubi Qafqazda iqtisadi fəallığı dəstəkləməyə davam etmişdir. Ermənistan, Gürcüstan və Tacikistan artıq ikinci ildir ki, regionda ən yüksək artım göstəriciləri malik olan ölkələr olaraq qalır.

**Əlavə üçün şəxslər:**


**Contacts:**
*Washington:* Indira Chand, +1 (703) 376-7491, ichand@worldbank.org


AMA üzrə İqtisadi Məruzənin əvvəlki buraxılışları ilə tanış olmaq üçün bura daxil olun.
Facebook: https://www.facebook.com/WorldBankEuropeCentralAsia/
Twitter: http://www.twitter.com/worldbank
YouTube: http://www.youtube.com/worldbank


**News Release**
2024/ECA/017